# Tvinninq Bülleteni

BURAXILIŞ 1 AZ/16/ENI/EC/02/19 BERLIN, 30 yanvar 2021-ci il

## GİRİŞ SÖZÜ

Hörmətli oxucular,

Bu bülletenlə biz layihə tərəfdaşlarımız olan Azərbaycan və Aİ ekspertlərini və bütün digər maraqlı tərəfləri Azərbaycan Respublikasının Standartlaşdırma İnstitutu (AZSTAND) və Almaniyanın Federal İqtisadi Məsələlər və Enerji Nazirliyi (BMWi), Almaniyanın Standartlaşdırma İnstitutu (DIN), İspaniyanın Standartlaşdırma Assosiasiyası (UNE) və İsveçin Standartlar İnstitutu (SIS) arasında icra edilməkdə olan yeni Tvinninq layihəsi barədə məlumatlarla təmin etmək istərdik.

Layihə AZSTAND və onun Aİ tərəfdaşları arasında əməkdaşlığın gücləndirilməsinə həsr olunmaqla İnstitutda transformasiya proseslərinin tənzimləndirilməsini və ÜTT-yə gələcək üzvlük istiqamətində standartların Avropa və beynəlxalq tələblərə daha da uyğunlaşdırılmasını nəzərdə tutur. Beləliklə, növbəti 18 ay ərzində layihə korporativ idarəetmə, rəqəmsal transformasiya və maliyyə mexanizmləri adlanan üç əsas sahəni hədəfə alacaqdır.

Bülletenin gələcək buraxılışlarında Tvinninq layihəsinin irəliləyişləri barədə davamlı əsasda məlumatlar təqdim ediləcəkdir. Layihənin məqsədlərinə nail olmaq üçün faydalı əməkdaşlığın həyata keçirilməsinə ümid edirik.

Berlin, Bakı. Yanvar, 2021-ci il.

## STRUKTUR

Layihənin strukturu üç komponentdən təşkil olunmuşdur.

**Komponent 1** Korporativ İdarəetmə: milli standartlaşdırma strategiyası, institusional yol xəritəsi və bazara nəzarət mexanizmləri, eləcə də, texniki komitələrin təsvirinin hazırlanması, onların prosedur və proseslərinin optimallaşdırılmasını nəzərdə tutur.

**Komponent 2** Rəqəmsal Transformasiya: burada əsas hədəf AZSTAND üçün rəqəmsal transformasiya planını hazırlamaq, brend məlumatlandırması və kommunikasiyanı gücləndirməkdir.

**Komponent 3** Maliyyə Mexanizmləri: bu komponentin məqsədi büdcə proseslərini təhlil etmək, proqnozlaşdırma modelini hazırlamaq, dərin bazar təhlili və istehlakçı ehtiyaclarına yardım etməklə AZSTAND-in maliyyə stabilliyi və müstəqilliyini təkmilləşdirməkdir.

## LAYİHƏ TƏQDİMATI

Cari layihəyə rəsmən 18 ay müddəti ilə 2020-ci ilin 1 noyabr tarixində başlanılmışdır. Layihə 1 milyon avro həcmində büdcəyə malik olmaqla Avropa Qonşuluq Aləti (AQA) çərçivəsində Avropa İttifaqı tərəfindən maliyyələşdirilir.

Tvinninq layihəsinin aparıcı Üzv Dövlət tərəfdaşı Almaniyanın Federal İqtisadi Məsələlər və Enerji Nazirliyi (BMWi) və Almaniyanın Standartlaşdırma İnstitutudur (DIN). Bu instituta layihənin kiçik tərəfdaşları olan İspaniyanın Standartlaşdırma Assosiasiyası (UNE) və İsveçin Standartlar İnstitutu (SIS) dəstək verir.

**Layihənin ümumi məqsədi** Azərbaycanda könüllü standartlaşdırma sistemi üçün hüquqi və institusional bazanı gücləndirməkdir.

**Layihənin konkret məqsədi** yeni qanunverici və tənzimləyici tələblərə cavab verməkdə və öz fəaliyyətini təkmilləşdirməkdə Milli Standartlaşdırma Orqanı (MSO) qismində AZSTAND-a yardım göstərməkdir.

## İCRA

Layihə müqaviləsi barədə 2020-ci ilin 29 may tarixində notifikasiyanın verilməsinə baxmayaraq, COVİD-19 pandemiyasına görə layihə 1 noyabr tarixinə qədər təxirə salındı. Bu səbəbdən layihənin rəsmi açılışı 4 noyabr tarixində **Açılış Toplantısı** ilə keçirilmiş və 2 dekabr tarixində ilk Davamlı İş Planını təsdiq etməklə icrası **İlk Layihə İşçi Qrupunun iclası** ilə davam etdirilmişdir. Vaxtı itirməmək məqsədilə Konsorsium COVİD-10 vəziyyətində Davamlı İş Planı və layihənin icrasını müzakirə etmək üçün bir neçə dəfə onlayn rejimdə görüşlər keçirmişdir. Bu görüşlər noyabr ayından əvvəl könüllü əsasda aparılmışdır. Bununla da, Benefisiarla birgə səylər nəticəsində Açılış Toplantısından bir neçə həftə sonra İş Planının ilk layihəsi hazırlanmışdır.

Layihənin iki köməkçisinin seçilməsi prosesi paralel şəkildə məsafəli rejimdə keçirilmiş və eyni zamanda Benefisiar Tvinninq komandası üçün ofis yeri və digər müvafiq avadanlığın hazırlanması işi həyata keçirilmişdir.

**Tvinninq komandası**

Denis Kaşuba – RTM
Email: denis.kaschuba.ext@ptb.de

Lalə Hüseynova - RTM Köməkçisi
Email: lala.husseynova@gmail.com
Phone: +994 70 338 58 28

Venera Mehdiyeva – Tərcüməçi
Email: venera.bakutwinning@gmail.com
Phone: +99455 312 71 91

Ünvan: www.azstand.gov.az



Açılış mərasimi , 4 noyabr 2020-ci il




## FƏALİYYƏTİN BAŞLANILMASI

Ilk fəaliyyət bayram mövsümünün başlanmasından əvvəl İşçi Qrupunun iclasından sonra icra olunmuşdur. Fəaliyyət qanunvericilik bazasının təhlilini əhatə etməklə 1-ci Komponentə həsr olunmuşdur. Bundan başqa, bu məsləhətləşmə digər iki komponent barədə daha çox məlumat əldə etmək və AZSTAND-da mövcud vəziyyət barəsində daha aydın təsəvvürə malik olmaq məqsədinə də xidmət etmişdir. Konsorsiumun eksperti AZSTAND-nın bütün komponent rəhbərləri ilə görüşmüş və bununla da ilk təmas yaradılmışdır. Fəaliyyətin hesabatı digər komponentlərdə ilk məsləhətləşmələrə bir əsas olaraq xidmət göstərəcəkdir. Məsləhətləşmələrin ənənəvi yolunun 2021-ci ilin payızından tez olmamaqla başlanılması ehtimal olunur. Buna görə də, hər iki tərəfin ekspertləri təmin edilən və qəbul edilən təcrübənin yetərli səviyyəsini saxlamaq üçün məsafəli iclasların səmərəliliyini artırmalı olacaqlar.







*Bu Layihə Avropa İttifaqı tərəfindən maliyyələşdirilir.*

*Bu nəşrin məzmunu Tvinninq layihəsinin RTM-i Denis Kaşubanın tam məsuliyyəti üzərinə düşür və Avropa İttifaqının rəyini əks etdirmir.*